# Bir günün bəyi, bir günlük müharibənin şəhidi



**Abbasov Emin Faiq oğlu 1998-ci ilin may ayının 15-də Tərtər rayonunun Kəngərli kəndində doğulub. 2004- cü ildə birinci sinfə gedib. 2015-ci ildə orta məktəbi bitirib. 2016-2017-ci illərdə hərbi xidmətə yola düşüb. Əsgərlik xidmətini başa vurub evlərinə dönüb. 2020-ci ildə hərbi səfərbərliyə çağrılıb. Və sentyabrın 21-də II Vətən müharibəsində erməni hərbiçi qüvvələrinə qarşı Azərbaycanımızın ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad olunması yolunda gedən döyüşlərdə qəhrəmanlıqla iştirak edib. Suqovuşanın, Füzulinin alınmasında döyüş yolu keçib. Zəfərlə başa çatan 44 günlük müharibədə göstərdiyi igidliyə görə Emin Abbasov 2020-ci il, 29 dekabr tarixində Azərbaycan Respublikası Prezidentinin 2368, nömrəli sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub. Müharibə qurtardıqdan sonra Emin Abbasov yeni yaradılmış komanda hərbi hissəsində kəşfiyyatçı kimi fəaliyyətə başlayıb. Çavuş kimi çalışan Emin bir müddətdən sonra Türkiyədə hərbi kurs keçərək, gizir rütbəsini alır. 2022-ci il sentyabrın 13-də baş verən döyüşlərdə iştirak edib, qəhrəmanlıqla döyüşüb. 2022-ci il, 21 avqust tarixində Azərbaycan Respulikası Nazirlər Kabinetinin 250s nömrəli sərəncamı ilə Emin Abbasov "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunur.**

Emin bir neçə ay olardı ki, nişanlı idi. Sentyabrın 17-də Cəlilabad rayonunda qız toyları olan Emin sevgilisi ilə evlərinə gəlir. Və həmin gün bəy olur. Onun səhərisi gün ayın 18-də məzuniyyətdə olmasına baxmayaraq hərbidə olan vəziyyətlə əlaqədar geri çağrılır. 2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının konistitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağda lokal xarakterli anti-terror əməliyyatı başlanır. Qarabağ erməni separatçılarının Azərbaycan torpaqlarında apardığı terror aktlarına cavab olaraq başlanan bu anti-terror əməliyyatına Emin Abbasov da qatılır. Qəhrəmanlıqla döyüşür və ağır yaralanır. Onu yaralı vəziyyətdə təcili yardım maşınında aparan zaman düşmən həmin maşını vurur. Və Eminlə birlikdə bir neçə yaralı şəhidimiz şəhid olur.

Son olaraq həyat yoldaşına belə bir mesaj yazır: "Sevgili canan. Əziz həyat yoldaşım səni daim sevirəm, elə də olacaq. Başıma bir iş gəlsə evin qızısan. Və adımı daima uca tut. Allaha əmanət ol".

Əzizimiz Emin. Sən vətəni anandan, çox sevdiyin həyat yoldaşından üstün tutdun. Şəhidlik yolunu seçdin. Məkanın cənnət olsun əziz balam.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin.**

---

**Nəcibə İLKİN, Yazıçı, şair-publisist**

**Azad Azərbaycan.- 2023- cü il.- 28 sentyabr.- S. 2.**